# Özün hünər göstər, özün ad qazan

*Dünyanın yaraşığı, təbiətin ən şirin neməti, ata-ana ömrünün bəzəyi övladlardır. Həyatımızı gözəlləşdirən, mənalandıran dünyaya gələn körpə uşaqlardır. Böyük fransız yazıçısı V.Hüqo çox haqlı olaraq demişdir ki, mən uşaq qığıltısından təntənəli himn tanımıram.*



Rus yazıçısı M.Qorki isə bütün uşaqları yer üzünün ən zərif, ətirli çiçəkləri adlandırmışdır. Böyük Səməd Vurğun çox gözəl deyib:

***Dünya bir evdirsə, övlad işıqdır,***
***Oğul arxadırsa, qız yaraşıqdır.***

Bir atalar sözü yadıma düşdü: «Uşaqlı ev bazardır, uşaqsız ev məzar».

Bir bayatıda deyildiyi kimi;

***Bala dadı, bal dadı,***
***Bala adam aldadır.***
***Yaxşısına mən qurban,***
***Pisi yenə bal dadır.***

Bizim Tomris, Sara Xatun, Burla xatun, Banuçiçək, Nigar, Həcər, Məhsəti Gəncəvi, Xurşid Banu Natəvan kimi ismətli, qeyrətli qadınlarımız olub. Nizamini, Nəsimini, Füzulini, Vaqifi, Sabiri, Aşıq Ələsgəri, Səməd Vurğunu, Üzeyir Hacıbəyovu, Qara Qarayevi, Bülbülü, Xanı, Rəşidi, Koroğlunu, Babəki, Cavanşiri, Nəbini məhz Azərbaycan qadınları dünyaya gətirib. Şah İsmayıl Xətaini, Məmmədəmin Rəsulzadəni, Həsən bəy Zərdabini, Nəriman Nərimanovu, Zeynalabdin Tağıyevi, Həzi Aslanovu doğan analara min rəhmət!

Müdrik babalarımız «İgid ölər, adı qalar», «Adını mən verdim, baxtını tanrı versin» - deyiblər. El tənəsinin sadə bir deyimi; «Heç adına-sanına yaraşmır», «Adını bədnam eləmə», «Adamın adı çıxınca, canı çıxsa yaxşıdır» kimi ifadələr dilimizdə, gündəlik həyatımızda tez-tez işlədilən sözlərdir. Ad eyni zamanda sənin, mənim, bizim, hamımızın əməllərini yada salandır.

Keçmişdə adı ən hörmətli, müdrik, mötəbər şəxs verərdi. «Dədə Qorqud» eposunda bu şəxs Dədə Qorqudun özüdür. Dədə Qorqud ad qoyanda heç vaxt tələsməyib. Uşaq yaşa dolub nəyə qadir olduğunu sübut edərsə, bu zaman müdrik Qorqud gəlib «boy boylayıb, soy soylayır» və əməllərinə, fəaliyyətinə görə müvafiq ad verir, buğa ilə vuruşda qalib gələnin adını «Buğac» qoyur, Təpəgözü öldürəni «Basat» adlandırır və s...

Adqoyma mərasimi xalq arasında indi də davam edir. Ancaq indi uşağa ad çox tez, anadan olan gün, yaxud 5-10 gün sonra verilir, özü də məzmundan yox, formadan çıxış edilir.

Valideynlərin çoxu öz övladlarına oğlandırsa İlham, Şahin, Aslan, İlkin, Elçin, Qorxmaz, İlqar, Novruz, Polad, Lətif, Cavid, Sabir, Vaqif, Elşən, Elşad, Elxan, Yaşar, Azər, Aqil, Adil, əgər qızdırsa Sevil, Sevinc, Aygün, Aybəniz, Günəş, Nərgiz, Bənövşə, Çiçək, Şəlalə, Aynur, Ceyran, Maral, Ulduz, Lalə, Yasəmən, Sona, Fidan, Arzu, Telli, Güllü, Ülkər, Sevda, Xanım, Bahar... kimi estetik duyumlu adlar qoyurlar. Ata-ana sanki uşaqlarının həmin adlara uyğun həyatda olmalarını arzu edirlər. Çox gözəl, çox nəcib və ülvi istəkdir. Gərək, övlad, oğul-qız fərqi yoxdur, ona verilən adı öz işi, əməli və fəaliyyəti ilə doğrultsun.

Ad qoyulanda yüz ölçüb, bir biçilməlidir. Heç bir valideyn ad vermək məsələsində laqeydlik, biganəlik göstərməməlidir. Uşağa elə ad qoyulmalıdır ki, o böyüyəndə, özünü dərk edəndə xəcalət çəkib, öz həmyaşıdlarından, tay-tuşlarından utanmasın. Nazir, Raykom, Narkom, Vayenkom, İspalkom, Komandir, Xozeyin, Komissar, Konsul, Mülkədar, Mayor və s. adlar vaxtı ilə övladlarını məşhurlaşdırmaq məqsədi ilə verilib. Dilimizdə həmçinin Konfrans, Kombayn, Traktor, Kolxoz, Rabitə, Razbor, Diləncı, Yolçu, Yetim, Çopur, Şofer, Çoban və s. kimi zövqsüz, xoşagəlməz adlara da təsadüf edilir.

Ad insanı məşhurlaşdırmır. Hamı bilməlidir, adı hər kəs, öz hünərinə, zəhmətinə, əməlinə görə qazanmalıdır.

Sadə bir misal. Bir nəfər atasının gözünü çıxardı ki, adına Koroğlu desinlər. Amma ona heç kəs Koroğlu demədi, hamı Kor kişinin oğlu dedi.

Tomris Azərbaycan qadınlarının qeyrət, ismət simvoludur. Döyüşlərdə ad alıb, hünər göstərib. Xalq şairi Səməd Vurğun onun haqqında yazıb;

«Anam Tomris kəsmədimi Reyxasrovun başını». İndi həmvətənlərimiz arasında nə qədər Nizami, Nəsimi, Füzuli, Faqif, Vidadi, Sabir, Cavid, Müşviq adı daşıyanlar var! Ancaq, nə faydası «hər oxuyan Molla Pənah olmaz».

Vahid, qüdrətli və mərkəzləşdirilmiş Azərbaycan





M.F. Ax... adına
Azərbaycan ...
Kitabx...

dövləti yaradan, doğma dilimizi Dəmirqapı Dərbənddən İran körfəzinə qədər böyük bir ərazidə dövlət dilinə çevirən Şah İsmayıl Xətaini kim unudar!?

Bütün ömrünü doğma xalqı və vətəni yolunda qoyan böyük xeyriyyəçi, neft milyonçusu Hacı Zeynalabdin Tağıyevə allah rəhmət eləsin!

Generallar Əlağa Şıxlınskinin, Səməd bəy Mehmandarovun Azərbaycanın hərb tarixində böyük xidmətləri olmuşdur.

«Bir kərə yüksələn bayraq bir daha enməz!» – deyən ilk Azərbaycan Demokratik Cümhuriyyətinin banisi Məmmədəmin Rəsulzadə, ilk hökumət başçısı Fətəli xan Xoyski bizim fəxrimizdir.

Xalqımız iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank Qoşunları qvardiya general-mayoru Həzi Aslanovla haqlı olaraq fəxr edir, onun xatirəsini həmişə əziz tutur.

Oğluna Üzeyir adı qoyan valideyn haradan bilərdi ki, onların oğlu vaxt gələcək Azərbaycanın Dövlət Himnini yazacaq, milli musiqimizin, Şərqdə ilk operanın banisi, dünya şöhrətli bəstəkar Üzeyir Hacıbəyov olacaqdır.

Adi bir kənd uşağı olan qara gözlü, qıvrımsaçlı balaca Səməd böyüyüb şair Səməd Vurğun olacaq, Azərbaycan şerinin bayrağını zirvədən-zirvəyə qaldıracaq, dünya şairlərinə meydan oxuyacaqdır.

Tanrı Azərbaycan xalqına dahi şəxsiyyət, müdrik rəhbər Heydər Əliyev kimi dühanı, xilaskarı bəxş etmişdir. Bu fenomenal şəxsiyyət Azərbaycana rəhbərlik etdiyi illərdə respublikanın inkişafı və çiçəklənməsi yolunda misilsiz xidmətlər göstərmişdir. Müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı olan Heydər Əliyev ölkəmizi bütün dünyaya tanıtmışdır. Azərbaycan Heydər Əliyevin şah əsəridir.

Heydər Əliyev siyasi kursunun layiqli varisi möhtərəm İlham Əliyev hər bir azərbaycanlının prezidentidir. Yeni əsrin yeni prezidenti cənab İ.Əliyev ölkəmizin ictimai-iqtisadi və sosial həyatının yüksəlişi yolunda yorulmadan fəaliyyət göstərir. Prezident İlham Əliyevin əməyi nəticəsində müstəqil Azərbaycan XXI əsrdə Cənubi Qafqazda lider dövlətə çevrilmiş, respublikamız bu gün dünyanın inkişaf etmiş dövlətləri ilə bir sırada durur. Allah qəni-qəni rəhmət etsin Heydər Əliyevə və Zərifə xanım Əliyevaya! Onlar Azərbaycana İlham kimi oğul bəxş etmişlər.

Bəli, oğul oğul olmalıdır. Valideynin ona verdiyi adı öz hünəri, ləyaqəti zəhməti ilə doğrultmalıdır. Xalq şairi Osman Sarıvəlli gözəl deyib:

*Oğul, fayda yoxdur biz qoyan addan,*
*Özün hünər göstər, özün ad qazan.*

**K.ABBASOĞLU**
Qazax rayonu